Mərd davransan niyyətini o, bilərək
Hörmət qoyar, yüz kişidən seçər səni.
Maral gözü şir gözünə çevrilərək
Baxışının qılıncıyla biçər səni

Tamah salıb sərxoş-sərxoş baxsan ona.
Qəzəbindən dönər çılğın bir aslana,
Atılar da üzərinə dəli-dəli
O mehriban, o füsunkar türk gözəli.

Fərəhli-Ayazlı dünyam

Açıldı aləmə Fərəhin gözü –
Bir damla nur düşdü baxışlarından.
Bu kiçik zərrədən – nur mirvarından
Dünyanın bir az da nurlandı üzü.

LALƏ

Bir çiçəyəm döşləri,
Dolayları bəzərəm.
Oğlanların, qızların
Yaxasında gəzərəm.

Soyununca donumu,
Rəngim olar qırmızı.
Üzüm gülü andırar,
Yarpaqlarım yarpızı.

Ürək açan rəngimi
Uzaqlardan görəntək
Uçub qonar üstümə
Bal arısı, kəpənək.

Duyunca yoxdur ətrim –
Bir an da tutmaz qərar.
Nişanədir bu dərddən
Sinəmdəki qaralar.

Lakin zərif çiçəyəm,
Yaraşığam çöllərə.
Hər eldə, hər ölkədə
Adım düşüb dillərə.

Üzü pörtmüş görəndə
Utancaq bir uşağı,
Deyərlər ki, laləyə
Dönmüş, baxın, yanağı.

Ya da sübh açılanda,
Qızaranda dan yeri,
Deyərlər al şəfəqin
Var laləyə bənzəri.

ÇOBANALDADAN

Pöhrələnmiş kol içində
Bu xırda quş tikər yuva.
Gah düzdə, gah yol içində
Kiçik çoban qova-qova
Axşamacan gəzər onu,
Bu axtarış üzər onu,
Çobanaldadan oyunbaz
Baxanları heyran qoyar.
Cik-cik ilə edər avaz,
Budaqları bir-bir sayar.
Zirək quşdur o çox yaman.
Axtarıb yem tapan zaman
Səkə-səkə çəpərləri
Yuvasına dönər geri.
Qanadlanar ona sarı
Milçək boyda balaları.

TORAĞAY

Bir kəkilli quşam mən,
Xoşlanar şən nəğməmdən
Bağda açan qızılgül,
Tarlada telli sünbül.
Yovşanlıqda gəzərəm,

Yol boyunca süzərəm.
Yerə qısılan zaman
Seçilmərəm boz otdan.
Seyr edərəm təpəni,
Güllər çağırar məni,
Mənsə ora getmərəm,
Yad yerə meyl etmərəm.
Mənim də el-obam var:
Çəpər altda yuvam var,
Yarğan üstüdür yerim,
Yurdunu tərk edər kim!

QIRQOVUL

Zər qanadlı bir quşam,
Əzəldən yurd salmışam
Keçilməz meşələrdə.
Adım gəzir dillərdə.
Bir səs gəlcək uçaram,
Əlvan qanad açaram.
Ovçu görəntək məni,
Çıxardıb tüfəngini
Əl aparar çaxmağa,
Amma... qıymaz vurmağa.

NƏNƏMİN SÖZLƏRİ

Uşaqlıqdan sevmişəm
Mən el nağıllarını,
Dinləmişəm nənəmi –
O mehriban qarını.
Şirin söhbət açardı
O, dostluqdan, hünərdən;
Yeddibaşlı ilandan,
Gizli dəfinələrdən.

Söyləyərdi, dünyada
Nələr vardır, ah nələr...
Səpilmiş yer üzünə
Parlaq, nadir incilər.

Xəzinələr bəzəmiş
Bu torpağın qoynunu.
Kim qoçaqdır, igiddir
Axtarıb tapır onu...

Dinlədikcə nənəmi
Nə yorular, doyardım,
Mən də inci, xəzinə
Tapmaq arzulayardım.

Bu xoş istək, fikrimin
Səmasında süzərdi;
Nəzərlərim həmişə
Dörd tərəfi gəzərdi.

Yadımdadır bir dəfə
Gecə keçmişdi xeyli,
Gözlərimdən quş olub
Uçmuşdu yuxu meyli.

Gördüm bir "göz" parlayır,
Yanır zülmət içində.
Vurdu sinəmdə ürək
Bir xoş riqqət içində.

Dedim inci tapmışam...
Çatdım ona sevincək.
Tez götürdüm əlimə.
Gördüm böcəkdir, böcək.

Barmağımın üstündə
O tərpəndi, süründü.

Qurdun yumşaq bədəni
Mənə iyrənc göründü...

Bir dəfə də yaz çağı
Dolaşırdım çəməndə,
Bir təzəlik duyurdum
Nərgizdə, yasəməndə.

Qəlbimi oxşayırdı
Zərif, əlvan çiçəklər,
Uçuşurdu qanadı
Zər yazılı böcəklər.

Hər yana öz nurunu
Paylayırdı al günəş,
Yol üstündə, bu zaman
Gördüm yanır bir atəş.

Min rəng çalır ziyası
Firuzə, yaqut kimi.
O bir qızıl kəmərmi,
Yoxsa nadir incimi,
Bəzəmişdir al-əlvan
Hər yanı, hər tərəfi?

Yaxınlaşdım, üstümə
Fısıldadı bir əfi...

Qaçdım qan-tər içində.
Girən zaman evə mən
Qoca nənəm tələşlə
Dedi: – hardan gəlirsən?
Olanları söylədim...
Dərin xəyala getdi,
Məni başa saldı o,
Sonra məzəmmət etdi:

– Mənasını duymadan
Uysan parıltılara,
Ya qurda rast gələrsən,
Ya zəhərli şahmara.

Təkcə gözə inanma,
Ağlınla düşün dərin –
Əslini saxtasından
Seçməkçin incilərin.

DƏLƏ

Dələyə bax, dələyə,
Quyruğu bir şələyə.
Sadəlövh bir gözəldir –
Düşməsin heç kələyə.

Səs duydumu qulağı
Qanad olar ayağı.
Ağac-ağac atlanar,
Gəzər bir-bir budağı.

Dələyə bax, dələyə,
Quyruğu bir şələyə,
Qanadlanmış diləkdir
Necə girsin bələyə?!

Pır-pır ürək kimidi,
Dinc insanlar ümidi!
Şam meşəsi – sevdiyi
Vətənidi, elidi.

Dələyə bax, dələyə,
Quyruğu bir şələyə,
Azadlığa qovuşub,
Rast gəlməsin tələyə...

YAVAN ÇÖRƏYİN DADI

Oyuncaqlar, evciklər
Bezdirib Nərimanı,
Qaşqabağı açılmır,
Tez-tez qaralır qanı.

Küsür, ana ortaya
Gətirəndə xörəyi,
Nə konfeti bəyənir,
Nə də şirin çörəyi...

Bir gün ata oğlunu
İş yerinə apardı,
Xırdaca bel götürüb
Göy ləkləri suvardı.

Cana gəlib dirçəldi
Yemiş, qarpız tağları.
Elə bil ki, o qoydu
Dağ üstünə dağları,

Qərənfili, reyhanı,
Gülü suvaraq, – deyə
Nəriman heç qayıtmaq
İstəmirdi geriyə.

Axşam evə dönəndə
Gözləmədən xörəyi,
Şirin-şirin, iştahla
Yedi yavan çörəyi...

MƏLAHƏT

Yaman xəstə düşübdür
Mələhətin nənəsi.
Əsir əli, ayağı,
Şaqqıldayır çənəsi.

Sızıldayır, tövşüyür:
– Aman, aman, ürəyim,
Nəfəs çəkə bilmirəm,
Qovuşubdur kürəyim...

Bilmək olmur, doğrusu,
Həkimlərin dilini,
Biri qan vurun deyir,
O birisi zəlini
Dərman kimi buyurur,
Adamı çaş-baş qoyur.

Bir başqası dillənir:
"Sətəlcəmdir, sətəlcəm
Bu həbləri qəbul et,
Sabah yenə gələcəm..."

Mat qalıbdır nənəsi,
Mat qalıbdır Mələhət:
"hərəsi bir söz deyir,
Olarmı heç belə dərd?!

Hamısının heyrətdən
Yaman çatılıb qaşı.
Bəlkə bu həkimlərin
Xarab olubdur başı?

Yayın cırhacırında
Sətəlcəmin nə dərdi?
Bir sümük, bir dəriyə
Zəli qoymaq hədərdi!.."

Nənəsinin böyründən
Bir addım da qopmayır,
Barmağıyla nəbzini
Tutub diqqətlə sayır.

Soyuq suda isladıb
Dəsmal qoyur başına.
Baxsan yazığın gələr
Gözlərinin yaşına.

Təngə gətirib onu
Uşaqlar da bayaqdan:
– Ay qız, nə vaxt, de görək
Çıxacaqsan otaqdan?

Daşaltına yollanan
Hər gün dəstə-dəstədir...
– Yubanmayın gedin siz,
Mənim nənəm xəstədir...

– Nə olsun ki, sağalar...
– Bəhanəni burax sən,
Nə xeyrin var qalanda?
Həkimsən?
– *Çay gətirəm, su verəm,*
Qulluğunda duraram...

Əl çəkməyir uşaqlar,
İnad edir Mələhət.
Qulağına yetişir
Nənənin də bu söhbət.

Deyir: "Bala, sən də get,
Anan-atan evdədir.
Tanıtdığım otlardan,
Çiçəklərdən yığ gətir.
Bir-bir deyim qulaq as,
Qurban sənə nənəsi:

İstəyirəm şorbama
Qatılsın dağ nanəsi,
Quşəppəyi, cincilim,
Bir az da çöl kişnişi.
Əvəliklə qırxbuğum
Məlhəm edər bişmişi.

Çibanım var, amandır,
Hardan olsa, tap qızım,
Gətir bağayarpağı,
Penisillin nə lazım?..

Qıçlarımı yel tutub,
Qoy dalasın gicitkən;
Öskürəyin, sancının
Əlacıdır baldırğan.

Dəm almamış çayıma
Tapıb töksən sən əgər –
Kəklikotu, həmərsin,
Moruq kökü, qantəpər,
Cökə gülü, diş otu,
Zirinc, meşə zirəsi
Sağalaram, yüz dərdin,
Dərmanıdır hərəsi...”

Kirpik çalıb dinləyir
Nənəsini Məlahət.
Gözlərində min ümid,
Ürəyində bir həsrət.

Torbasını götürüb
Uşaqlara qoşulur.
Qanadlanır həvəsdən,
Yamaclarda quş olur.
Baxışıyla ələyir
Çiçəkləri, otları.
Çəkmir onu ağ tutun,

Qara tutun nobarı.
Nə də ona gəl deyir
Tərənəli bulaqlar.
Tut çırpsa da, çimsə də,
Oxusa da uşaqlar,
Yoxdur, yoxdur bunlara
Məlahətin həvəsi.
Ondan əlac gözləyir
Axı, xəstə nənəsi.

Hər çiçəyi zənn ilə
Axtarır o, seçir o.
Uçurumların üstündən
Keçi kimi keçir o.

Dovşan olub baş vurur
Gah dərəyə, gah yala.
Bir yol hündür qayadan
Düşəcəkdi az qala.
Hədər getmir çəkdiyi
Əziyyəti, cəfası.
Çölün, düzün ətriylə
Dolur şəfa torbası.

Ayaq üstə azacıq
Fikrə gedir Məlahət
Başqa gözdə görünür
İndi ona təbiət.

Baxır üzü şəfqətli,
Sehrli bir aləmə.
Ağ xalatlı həkimmiş
Ağ zirvələr sən demə!
Böyük əczaxanaymış
Azərbaycan dağları.
Gül-çiçəklə qovur o
Hər dərdi, hər azarı...

BALACA OVÇU

I

Sahil qəşəng, gəzməli...
Burda hər əyləncə var.
Göy hovuzu üzməli,
Çəməni qəlbi oxşar.

Asma tramvay ilə
Dağ parkına çıxan kim,
Sərgilərə, kinoya
Tamaşaya baxan kim...

Dolu olur bütün gün
Nişangahın qabağı.
Həvəskarlar öyrənir
Burda nişan almağı:

Gəlib keçir şəkillər,
Sərrast götür nişanı.
İstəyirsən qurdu vur,
İstəyirsən dovşanı...

Tülkü güdür kəkliyi,
Dərhal atasan gərək.
Ayı ötür, tüfəngin
Tətiyini tez ol, çək!..

Fəxrəddin də buraya
Gəldi hər axşam çağı.
Atasından öyrəndi
O da nişan almağı.

Ovçulartək çoxunu
Uydursa da özündən –
Bəzən olur doğrudan,
Quşu vurur gözündən...

II

Bir gün dedi: "Atacan,
Apar məni də ova.
Lap doğruçu tülkünü
Ovlaram qova-qova."

Səhər açılmamışdan
Onlar yola düşdülər.
Qar yağmışdı... meşədə
Soyuqdan büzüşdülər.

– Gözlə, gedim çıl-çırpı
Yığım, ocaq qalayaq.
Özün də hazır dayan,
Hənirti duydum bayaq...

– Arxayın ol, çıxanı
Vuracağam başından.
Uşaq yekə danışdı
Öz balaca yaşından.

Nəzər salıb ətrafa
Ovçu kimi boylandı.
Bu vaxt nəsə kolluqdan
Çıxıb bir an dayandı...

Tüfəng dərhal açıldı,
Ata səsə yüyürdü...
Tülkü bilib atdığı
Gördülər ki, cüyürdü.

Həm də bu ilki bala...
Qanı axmışdı nələr –
Açılmışdı elə bil
Qarda qızıl lalələr.

Çabaladı, töyşüdü.
Açıb yumdu gözünü.
O günahsız heyvanın
Yaş bürüdü üzünü.

Ata gəlib cüyürün
Yarasını bağladı.
Oğlu dura bilməyib
Hönkür-hönkür ağladı...

* * *

Əfsanəydi bu sözlər
Uydurub şair-ata,
Balasının əlindən
Çıxmamışdı bir xata.

Baş tapmıram, qalmışam
Başıma döyə-döyə –
Fəxrəddinim qanına
Qəltan oldu bəs niyə,
Bəs niyə?!

Mənim gözüm ulduzlara, günə, aya zaman-zaman baxacaqdır

ULDUZLARA GEDƏN YOLDA

Vladimir Komarovun xatirəsinə

Qaranəfəs gəldi oğlum
Əsə-əsə qolu, qıçı.
Dedi bu gün həlak olub
Dünən uçan asimançı.

Bir titrəmə tutdu onun
Çənəsini, dodağını.
Göz yaşı da islatmışdı
Kipriyini, yanağını.

Söz tapmadım sual verim
Cavab alım mən bu hala;
Dilədim uca Tanrıdan
Kaş bu xəbər yalan ola.

Bir az əvvəl fəzalardan
Almadıqmı salamını?
Alqışladı hamı səni,
Alqışladın sən hamını.

Nəbzin bahar yağışıtək
Yağmırdımı dünən yerə –
İnam ilə dövr etdikcə
Nəfəsini dərə-dərə?